## *Şəhidlər*

(1990-cı il yanvarın 20-də Azərbaycanın azadlığı uğurunda şəhid olanların əziz xatirəsinə)

...Anam Azərbaycanım,
qəm qarsıdı
sinəni, Unutmarıq bu
günü,
unutmarıq dünəni,
Axı susdurmaq olmaz,
el yolunda dinəni.
Sizə heykəl Murovmu,
Dəlidağmı,Kəpəzm
i? Hansı ömrə tay
tutum,
Bu vüqarı, bu əzmi?

Qara xətlə yazıldı
"20 Yanvar"
adın, Neçə ömrü taladı,
bu alovun, bu odun,
Bir ağladı ürəyi -
qəlbi qohumun,
yadın, Amalında, sözündə -
geridönməzlərsini
z, Siz şəhid analarsız,
siz şəhid ərlərsiniz.

Sizə heykəl ucaldır
hər ürək bir
biçimdə, Dağ boyda
heykəlsiniz,
qətrə qəlbin içində,
Elə sizin üçün də,
elə mənim üçün
də
"Yaşamaq yanmaq imiş"-
el üçün, Vətən
üçün, Atam, heykəl
ucalmaz,
hər yoldan ötən üçün.

13 yaş nədir axı,
bu yaşda hünərə
bax, Bu yaşda cəsarətə,
bu yaşda təpərə
bax, Eşidən qara geydi -
bu şəhid səfərə bax?
Bu səfərə gedənlər
geri dönməz, qayıtmaz,
Bu səfərə gedənlər
daşa dönər, boy atmaz.

Şəhidlər-
Bu ad mənim and yerim, qibləgahım,
Şəhidlər -
Bu ad mənim iniltim, ürək ahım,
Şəhidlər -
Bu ad mənim gələcəyim,
sabahım, Vüqarda - Savalanım,
həsrətdə -
Ağrıdağım, Bölünməz
Naxçıvanım,
bölünməz Qarabağım.

Qarabağım bir yana -
Araz dərdim bir
yana, Bu fəryad nə
fəryaddı,
ürək çətin
dayana, Ana: -Balam!-
çağırdı,
bala dedi: -Oy,
ana! Nə yaşa fərq
qoydunuz,
nə ada, nə taleyə,
Siz şəhid ünvanıyla
yazıldınız tarixə,
Siz şəhid ünvanıyla
Yazıldınız tarixə.

21 yanvar 1990, Kəlbəcər

Hüseyn Y. Şəhidlər // Bir parça ömür yolu. - Bakı : Araz, 2004. - S.221-222.